**UOT 008**

**Aygün Rüstəm qızı Eyvazlı**
**Azərbaycan Mədəniyyət və İncəsənət Universiteti**
**kulturalogiya üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: eyvazli.aygun74@gmail.com**

# AZƏRBAYCANIN MİLLİ-MƏDƏNİ İRSİNİN QORUNMASI PROBLEMLƏRİ

**Xülasə:** Məqalədə mədəni irsin qorunmasında diqqəti cəlb edən məqamlar milli-mədəni irsin qorunmasında Azərbaycan Respublikasının qanunvericiliyi və beynəlxalq hüquqi-normativ sənədlərlə tənzimlənməsi məsələləri inteqrativ şəkildə işlənmişdir. Milli-mədəni irsin qorunmasının bir sistem şəklində nəzərdə tutulması məqalədə geniş şəkildə şərh edilmişdir. Bu sistem milli-mədəni irsin qorunmasında həm dövlətin daxili hüququ, həm də beynəlxalq hüququn əlaqələndirilməsi çərçivəsinndə həyata keçirilir. Belə ki, Azərbaycan Respublikasında mədəni irsin qorunması öhdəliyi beynəlxalq hüququn mədəni irsin qorunması öhdəliyi ilə müəyyən olunduğu üçün milli hüquq normalarının müxtəlif formalarda müəyyən olunmasına bir o qədər ehtiyac qalmır. Həmçinin Azərbaycan Respublikasının milli hüquq normalarının beynəlxalq hüquq normalarına münasibəti də milli-mədəni irsin qorunmasında uzlaşmanı əsaslandırır. Bununla belə milli-mədəni irsin qorunması Azərbaycan Respublikasının ümumi hüquqi qaydalarına aiddir, çünki milli mədəni irs hər bir xalqın, etnosun özünəməxsus multikultural dəyərlərini özündə ifadə edir. Deməli, milli-mədəni irsin qorunması milli təhlükəsizliyin tərkib hissəsi kimi Azərbaycan Respublikasının hüquq normalarına daxildir və bunları pozmaq, laqeyd yanaşmaq qəbuledilməzdir.

**Açar sözlər:** Azərbaycan, milli-mədəni irs, mədəni irsin qorunması, problemlər, hüquq normalar

Milli maddi-mənəvi mədəni irs deyəndə nəyi nəzərdə tuturuq? Mədəniyyətin çoxşaxəliliyi mədəni irs anlamında nə deməkdir? Odur ki, **mədəni irs** sözlərinin birbaşa mənalarına diqqət yetirək. “Miras” keçmiş nəsillərdən bugünümüzə və gələcəyə çatan bir varlıqdır-desək, yanılmarıq. “Mədəni irs” dedikdə, adət-ənənələr, mədəniyyət, maddi və mənəvi dəyərlər başa düşülür. Mədəni irs insan topluluğuna aid olan keçmişi, bugünü ve gələcəyi əlaqələndirən tarixi anlayışdır. “İlk baxışdan mədəni irsin qorunması istiqamətində milli və beynəlxalq-hüquqi əsasların olması şübhə doğurmur. Amma burada mübahisə doğura biləcək bir məqamı vurğulamaq

lazımdır. Nəzərə alsaq ki, mədəni irsə daxil edilən mədəni irs obyektlərinin (mədəni sərvətlərin) əhəmiyyət dərəcəsi və dairəsinin müəyyən edilməsi dövlətlərin səlahiyyətindədir və mədəni özünüifadə müxtəlifliyi mövcud və qəbul ediləndir, o halda bu sferada dövlətlərin qanunvericiliyinin mövqeyinin ümumiləşdirilməsi səviyyəsi mübahisə predmeti ola bilər. Bu baxımdan "mədəni irs" anlayışının müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir"[7, s.27]. Mürəkkəb mahiyyətə malik olan mədəni irs anlayışı mədəni sərvətlər kimi də ifadə edilir. Bu baxımdan mədəni sərvətlər də mədəni irs kimi maddi və qeyri-maddi ola bilər. İfadə formasından asılı olaraq mədəni irsin maddi və mənəvi mədəni irsə bölünməsi anlaşıqlıdır. Mədəni irs hər bir xalqın kimliyi anlamında daha uğurlu səslənir. Hər bir xalqın mədəni irsi vardır və bu mədəni irsə malik olmaq xalqın hüququ toxunulmazdır.

Mədəni sərvətlər də mədəni irs kimi maddi və qeyri-maddi ola bilər. Mədəni irsin maddi və qeyri-maddiyə bölünməsi ifadə formasından asılıdır. "Mədəni irs" anlayışı tarix, incəsənət və elmi nöqteyinəzərdən universal dəyərlərə malik mədəniyyət nümunələrinin və abidələrinin, mədəni məkanların və əşyaların məcmusunu ifadə edir. Qeyd olunan mədəni irs obyektlərinin məcmusu "mədəni irs" anlayışının həcmini, həmin obyektlərin məcmusunu formalaşdıran əlamətlərin, xüsusiyyətlərin siyahısı isə anlayışın məzmununu təşkil edir[4, s.64].

Məqalədə mədəni irsin qorunmasında diqqəti cəlb edən məqamlar milli-mədəni irsin qorunmasında Azərbaycan Respublikasının qanunvericiliyi və beynəlxalq hüquqi-normativ sənədlərlə tənzimlənməsi məsələləri inteqrativ şəkildə işlənmişdir. Milli-mədəni irsin qorunmasının bir sistem şəklində nəzərdə tutulması məqalədə geniş şəkildə şərh edilmişdir. Bu sistem milli-mədəni irsin qorunmasında həm dövlətin daxili hüququ, həm də beynəlxalq hüququn əlaqələndirilməsi çərçivəsində həyata keçirilir. Belə ki, Azərbaycan Respublikasında mədəni irsin qorunması öhdəliyi beynəlxalq hüququn mədəni irsin qorunması öhdəliyi ilə müəyyən olunduğu üçün milli hüquq normalarının müxtəlif formalarda müəyyən olunmasına bir o qədər ehtiyac qalmır. Həmçinin Azərbaycan Respublikasının milli hüquq normalarının beynəlxalq hüquq normalarına münasibəti də milli-mədəni irsin qorunmasında uzlaşmanı əsaslandırır. Bununla belə milli-mədəni irsin qorunması Azərbaycan Respublikasının ümumi hüquqi qaydalarına aiddir, çünki milli mədəni irs hər bir xalqın, etnosun özünəməxsus multikultural dəyərlərini özündə ifadə edir. Deməli, milli-mədəni irsin qorunması milli təhlükəsizliyin tərkib hissəsi kimi Azərbaycan Respublikasının hüquq normalarına daxildir və bunları pozmaq, laqeyd yanaşmaq qəbuledilməzdir.

Milli-mədəni irsin qorunmasında Azərbaycan Respublikasının Prezidentinin müvafiq fərman və sərəncamları xüsusi əhəmiyyət malikdir. Bu fərman və sərən-

camları əsasında həyata keçirilən tədbirlər sırasına Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı, 27 dövlət tarix-mədəniyyət, memarlıq, bədii və etnoqrafiya qoruğu( məsələn, “İçərişəhər” dövlət tarixmemarlıq qoruğu, “Qobustan” dövlət tarixi-bədii qoruğu, “Atəşgah məbədi” dövlət tarixmemarlıq qoruğu, “Yanardağ” dövlət tarix-mədəniyyət və təbiət qoruğu və s.) daxildir. Azərbaycan Respublikasının Prezidentinin müvafiq fərman və sərəncamları ilə sənədlər əsasında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti təşkil edilmişdir.

1954-cü il Konvensiyası, bu əsasda Protokollarda “mədəni irsin müdafiəsi” anlayışından istifadə edilmişdir ki, silahlı münaqişə dövründə belə mədəni irs obyektlərinə münasibətdə qeyri-qanuni hərəkətlər(oğurlamaq, qanunsuz olaraq başqa yerə aparmaq, qəsdən zədə vurmaq, məhv etmək və s.) yolverilməzdir. Mədəni irs obyektlərinin müəyyənlədirilməsi, qorunması, mühafizə edilməsi, təbliği dövlət tərəfindən həyata keçirilən tədbirlər sistemidir. Mədəni irsin qorunması sistemi özündə milli və beynəlxalq səviyyədə qorumanı birləşdirir. Mədəni irsin beynəlxalq qorunması dedikdə, bu irsin aşkar edilməsi və saxlanması istiqamətində beynəlxalq əməkdaşlıq və yardım sisteminin yaradılması başa düşülür.

Mədən irsin qorunması dövlətin öhdəliyidir (Azərbaycan Respublikasının Konstitusiyası, m.16(II)[2]. Bu öhdəlik həm dövlətdaxili və həm də beynəlxalq səviyyədə həyata keçirir. Mədəni irsin aşkar edilməsi, saxlanması, mühafizəsi, təşviqi və gələcək nəsillərə çatdırılması öhdəliyi ilk olaraq həmin irsin mənsub olduğu dövlətin öhdəliyidir(1972-ci il Konvensiyasına əsasən (m.4)) [8].

Mədəni irsin qorunması hüquqi, iqtisadi, informasiya, təşkilati və s. baxımdan təmin olunması dövlət tərəfindən həyata keçirilsə də, bu ictimaiyyətin, hər kəsin borcudur. Mədəni irsin qorunması bu bir qayda olaraq ictimaiyyətin, qeyri-hökumət təşkilatlarının iştirakı ilə həyata keçirilir.

Mədəni irsin qorunması sahəsində mövcud olan çoxsaylı beynəlxalq müqavilələr, beynəxalq təşkilatlar, xüsusilə UNESKO çərçivəsində qəbul olunan sənədlər xüsusilə milli səviyyədə konkret təşkilati-hüquqi tədbirlərin həyata keçirilməsi üçün çox önəmlidir. Azərbaycanın mədəni irsinin qorunmasında Heydər Əliyev Fondu və onun prezidenti, Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban Əliyeva mühüm töhfələr vermişdir.

“Keçmişini bilməyən, gələcəyini görə bilməz” aforizmi Mehriban Əliyevanın fəaliyyətinin nəticəsini şərtləndirir. Belə ki, Mehriban Əliyevanın UNESKO

və İSESKO-nun Xoşməramlı Səfiri adını alması, UNESKO-nun “Qızıl Motsart” medalına və “Türk dünyasına xidmət” mükafatına və digər onlarca mükafatlara layiq görülməşi onun Azərbaycançılıq missiyasının, milli-mədəni irsimizin beynəlxalq aləmdə tanınması sahəsində gördüyü işlərin bariz nümunəsidir. Azərbaycanın muğam sənətinin, Azərbaycan tar ifaçılığı sənətinin, Aşıq sənətinin, Novruz bayramının, Kəlağayı(buta) simvolizmi, xalq sənətkarlıq nümunəsi olan 11 Azərbaycan xalçasının Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısına, İçərişəhər memarlıq kompleksi və Qobustan Dövlət Tarixi Bədii Qoruğunun Ümumdünya İrs Siyahısına daxil edilməsi Heydər Əliyev Fondu və onun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinin nəticəsidir.

Mədəni irsin qorunması sahəsində mövcud olan çoxsaylı tədbirlər sırasında Qarabağda, Türk dünyasının mədəniyyət beşiyi olan Şuşada yerləşən abidələrin bərpası konservasiyası başlıca vəzifələrdəndidr. Milli-mədəni irsin qorunması sahəsində dövlətin gördüyü tədbirlərlə yanaşı, xalqın hər bir nümayəndəsi öz əməyini əsirgəmir. Milli-mədəni irsin qorunması problemlərinin həllində hər bir vətəndaş əlindən gələni etməlidir. Məlumdur ki, erməni vəhşilikləri milli maddi-mədəni irsin məhvinə istiqamətlənmiş, erməni vandalları tərəfindən Alban abidələri, İslam abidələri, şəhər və kəndlər yararsız hala salınıb, əksər yerlərdə tamamilə dağıdılıb.

Xudafərin körpüləri, Şuşa Tarix-Memarlıq Qoruğu, Kəlbəcərdə yerləşən Qafqaz Albaniyası dövrünə aid abidələrin yenidən bərpası və konservasiyası gələcəkdə Qarabağ abidələrinin siyahısının UNESCO-ya təqdim olunması mədəni irsimizin dünyaya tanıtmaq işində mühüm əhəmiyyətə malikdir. Bu gün Qarabağda yerləşən abidələrinin yenidən dirçəldilməsi, bərpa və konservasiya olunaraq gələcək nəsillərə ötürülməsi işi Azərbaycan dövləti və Azərbaycan xalqının borcudur.

## Ədəbiyyat siyahısı:

1.Abbasov. N. Mədəniyyət siyasəti və mənəvi dəyərlər. Bakı, 2009, 444 s.
2.Azərbaycan Respublikasinin Konstitusiyasi. Bakı, 1995, https://www.e-qanun.az/framework/897
3.Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası. Bakı, 2014, 14 fevral. https://e-qanun.az/framework/27056
4.Beynəlxalq sənədlər toplusu. I cild. Bakı, Qanun, 2008, 960s
5.Qobustan dövlət tarixi-bədii qoruğu Dünya mədəni İrs Siyahısına daxil edilmişdir./Azərbaycan, 2007, 30 iyun, s. 5.
6.Гусейнов Л.Г. Международные обязательства государств в области прав человека. Баку, Издательство Hüquq ədəbiyyatı, 1998, 188 с.
7.Süleymanlı S. Mədəni irsin qorunması sahəsində beynəlxalq-hüquqi tənzimetmə

və Azərbaycan Respublikasının qanunvericiliyi. Bakı: Azərbaycan, 2018, 296 s.
8.Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya (16 noyabr 1972-ci il). https://files.preslib.az/projects/azereco/az/eco_m4_7.pdf

**Айгюн Рустам кызы Эйвазли**

# ПРОБЛЕМЫ ЗАЩИТЫ НАЦИОНАЛЬНО-КУЛЬТУРНОГО НАСЛЕДИЯ АЗЕРБАЙДЖАНА

**Резюме:** В статье интегративно разрабатываются моменты, привлекающие внимание в сфере охраны культурного наследия, вопросы регулирования законодательством Азербайджанской Республики и международными нормативно-правовыми документами в области охраны национально-культурного наследия. В статье широко трактуется охрана национально-культурного наследия как система. Данная система реализуется в рамках согласования как внутреннего права государства, так и международного права в сфере охраны национально-культурного наследия. Таким образом, поскольку обязательство по охране культурного наследия в Азербайджанской Республике определяется обязательством по охране культурного наследия международного права, нет необходимости определять национальные правовые нормы в различных формах. Также отношение национальных правовых норм Азербайджанской Республики к международным правовым нормам обосновывает примирение в защите национально-культурного наследия. Однако защита националь- но-культурного наследия относится к общим правовым нормам Азербайджанской Республики, поскольку национальное культурное наследие выражает уникальные поликультурные ценности каждого народа, этноса. Поэтому защита национально-культурного наследия включена в правовые нормы Азербайджанской Республики как составляющая национальной безопасности, и нарушать их и пренебрегать ими недопустимо.

**Ключевые слова:** Азербайджан, национально-культурное наследие, охрана культурного наследия, проблемы, правовые нормы.

**Aygun Rustam gizi Eyvazli**

# PROBLEMS OF PROTECTION OF THE NATIONAL-CULTURAL HERITAGE OF AZERBAIJAN

**Summary:** The article integratively develops moments that attract attention inthe field of cultural heritage protection, issues of regulation by the legislation of theRepublic of Azerbaijan and international legal documents in the field of nationalcultural heritage protection. The article broadly interprets the protection of the national cultural heritage as a system. This system is being implemented as part ofthe harmonization of both the internal law of the state and international law in thefield of protection of the national cultural heritage. Thus, since the obligation toprotect cultural heritage in the Republic of Azerbaijan is determined by the obligation to protect cultural heritage of international law, there is no need to definenational legal norms in various forms. Also, the relation of the national legal normsof the Republic of Azerbaijan to international legal norms justifies reconciliation inthe protection of the national cultural heritage. However, the protection of the national cultural heritage belongs to the general legal norms of the Republic ofAzerbaijan, since the national cultural heritage expresses the unique multiculturalvalues of each people, ethnic group. Therefore, the protection of the national cultural heritage is included in the legal norms of the Republic of Azerbaijan as acomponent of national security, and it is unacceptable to violate them and neglectthem.

**Key words**: Azerbaijan, national cultural heritage, protection of culturalheritage, problems, legal norms.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 12. 09. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**